# AZƏRBAYCAN QIZIL AYPARA CƏMİYYƏTİNİN

# 2004-CÜ İL ÜÇÜN

# İLLİK HESABATI

# AZƏRBAYCAN QIZIL AYPARA CƏMİYYƏTİNİN MİSSİYASI VƏ ALİ MƏQSƏDİ

## MİSSİYA

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını və insanlığın gücünü səfərbər edərək zavallı insanlara xidmət etmək

## TƏSVİR

Azərbaycan Qızıl Aypara Cəmiyyətini milli və beynəlxalq müstəvidə zavallı insanlara dəstək olan güclü təşkilata çevirmək

## ALİ MƏQSƏD

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarının gücləndirilməsi vasitəsilə, mərkəzi və yerli səviyyədə səmərəli və özünü doğruldan fəaliyyətlərin həyata keçirilməsi

## FÖVQƏLADƏ HALLARA HAZIRLIQ VƏ CAVABVERMƏ

Fövqəladə hallara cavabvermə üzrə koordinasiyanı yaratmaq və ehtiyyatların səfərbər edilməsi üçün Azərbaycan Qızıl Aypara Cəmiyyəti (Qızıl Aypara) əsas yerli tərəfdaşlarla əlaqələri inkişaf etdirməyə başlamışdır. İlkin mərhələdə Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Ekologiya və Təbii Sərvətlər Nazirliyi arasında müqavilə imzalanmışdır. Ölkədə dövlət müəssisəsi və qeyri-hökumət təşkilatları arasında bu növ müqavilə ilk dəfə imzalanmışdır. Bu müqavilə fövqəladə hallarda idarə edilmə planının olmaması boşluğunu aradan qaldırmağa kömək edəcək. Azərbaycan Qızıl Aypara Cəmiyyəti dövlətə bu planın hazırlanmasında dəstək olmaq üçün öz səylərini artırmağa çalışır.

Fövqəladə Hallara Hazırlıq və Cavabvermə proqramı vasitəsilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti fövqəladə hallar zamanı zərər çəkmiş insanlara köməklik göstərməyə hazır olmağa çalışır. Fəlakət zamanı cavabvermə üzrə Hərəkatın standartlarının daha yaxşı dərk edilməsini artırmaq məqsədilə Milli Cəmiyyətin Regional Mərkəzlərinin mobil könüllü dəstələri və işçiləri təlimatlandırılmışdır. Bundan başqa Qızıl Xaç/Qızıl Aypara üçün fövqəladə hal zamanı Yardım üzrə Prinsiplər və Qaydalar, habelə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı və Qeyri-Hökumət Təşkilatları üçün Davranış Kodeksi də treyninq iştirakçılarına öyrədilib.

Milli Cəmiyyətin yardım ehtiyatlarının idarə edilməsi imkanlarının gücləndirilməsi üzrə işə başlanılıb. Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının (Beynəlxalq Federasiya) Bakıdakı Nümayəndəliyi tərəfindən Qızıl Ayparanın 11 işçisi standart anbarlama prosedurları üzrə təlimatlandırılmışdır.

Qızıl Aypara tərəfindən 350 ailə üçün ( təqribən 1,750 adam ) ədyal, döşək, dəsmal, portativ qaz plitəsi, mətbəx dəsti, elektrik qızdırıcısı, gigiyenik dəst, yataq dəsti və yataq kisəsindən ibarət yardım ehtiyatı hazırlanmış və regionlarda olan anbarlarda yerləşdirilmişdir. Həmin ehtiyatlardan Milli Cəmiyyət tərəfindən yanğın, daşqın, yer sürüşməsindən müxtəlif rayonlarda zərər çəkmiş 64 ailəyə yardım ehtiyatı paylanılmışdır.

Milli Cəmiyyətin ümumilikdə 5 anbarı vardır: bunlardan 4-ü regional anbarlar olub Gəncə, Mingəçevir, Lənkəran və Naxçıvanda yerləşir, biri isə Bakıda yerləşən mərkəzi anbardır. Hər anbarda 50 ailə (250 nəfər) üçün yardım ehtiyatı yerləşdirilmişdir.

Fövqəladə Hallara Hazırlıq və Cavabvermə proqramı çərçivəsində suda boğulma hallarının qarşısını almaq məqsədi ilə Nabran dəniz çimərliyində “Azərbaycan Qızıl Aypara Cəmiyyəti əhalinin sağlamlığının keşiyində durur” şüarı altında xəbərdarlıq kompaniyası keçirilmişdir. Suda boğulma hallarının qarşısını necə almağa dair 2,000 broşur və İlk Yardıma dair 2,000 buklet paylanılmışdır. Eyni zamanda Nabran çimərliyində Azərbaycan Qızıl Aypara Cəmiyyətinn 40 işçisi üçün çadır sahəsinin seçilməsi, çadırların qurulub və yığılması, telekommunikasiya avadanlıqlarından istifadə olunması və ilk yardım üzrə təlimlər keçirilmişdir.

## İLK YARDIM

İnsan həyatının xilas edilməsi üzrə başlıca vərdişləri öyrətmək məqsədilə Qızıl Ayparanın ilk yardım təlimatçıları 2,610 nəfər adama 184 treyninq keçmişlər. Treyninq məşğələlərində hədəf qrupu məktəbli uşaqlar və onların müəllimləri, habelə Milli Cəmiyyətin könüllüləri, cənub düşərgələrində yaşayan daxili köçkünlər və qeyri-hökumət təşkilatlarının işçiləri olmuşlar.

2004-cü ilin əvvəllərində Qızıl Ayparanın hər bir Regional Mərkəzində 3 ilk yardım təlimatçısı ( yəni, ümumilikdə 19 ilk yardım təlimatçısı ), il ərzində yerli komitələrdə 88 yeni ilk yardım təlimatçıları hazırlanmışdır.

Qızıl Aypara «Project Harmony» yerli təşkilatı ilə əməkdaşlıq edir. Bu təşkilat Bakı, Gəncə, Mingəçevir, Sumqayıt və Lənkəran regionlarının 10 orta məktəbinin internetə pulsuz çıxışını təmin etmişdir. Habelə uşaqların Qızıl Ayparaya ilk yardım barədə suallar verməsi və müzakirə aparması üçün virtual forum təşkil etmişdir. Milli Cəmiyyətinin ilk yardım təlimatçıları da öz növbəsində bu orta məktəblərdə oxuyan şagirdlər üçün ilk yardım üzrə təlim keçirmişlər.

Ümumdünya İlk Yardım Günündə Qızıl Aypara könüllüləri ölkə üzrə simulyasiya təlimləri keçirmişlər. Bu təlimlər zamanı Qızıl Aypara könüllüləri geniş kütlələrə həyatı xilas etmə üsullarını nümayiş etdirmişlər. Bundan başqa ilk yardıma dair 2,000 buklet məktəblilərə, onların müəllimlərinə və ümumiyyətlə insanlar arasında yayımlanmışdır.

Qızıl Aypara ilk yardım üzrə göstərdiyi səylərin nəticəsini qiymətləndirmək məqsədilə təlim sessiyalarında iştirak etmiş 150 nəfər arasında sorğu keçirmişdir. Nəticədə 20 nəfər ilk yardım vərdişlərini işlətdiklərini bildirmişdir. Onlardan 7 nəfəri Sabirabad və Mingəçevirdən idi və onlar qıc olmanı saxlamağa kömək etmişlər, Gəncə və Lənkərandan olan 10 nəfər isə astmadan əziyyət çəkən insanlara ilk yardım göstərmişlər. Bakı və Sumqayıtdan olan iki nəfər bildirmişdir ki, onlar iki nəfəri suda boğulmadan xilas etmişlər. Bakı şəhərindən olan bir nəfər isə qeyd etmişdir ki, o, yol qəzasına məruz qalan bir insanın qanaxmasını saxlamağa kömək etmişdir. Adi həyatımızdan götürülmüş bu misallar Qızıl Ayparanın ilk yardım xidmətlərinin əhəmiyyətini göstərir.

# SAĞLAMLIQ VƏ QAYĞI

## Səhiyyə maarifi işi

2004-ci ildə Milli Cəmiyyət tərəfindən sağlamlıq üzrə 36 yeni könüllü təlimatlandırılmışdır. Bununla da Qızıl Ayparanın sağlamlıq üzrə təlimatçılarının sayı 45-ə çatmışdır. Onlar ailə planlaşdırılması, reproduktiv sağlamlıq, sağlam qidalanma, ilk yardım, şəxsi gigiyena və sanitariya, döş xərçəngi, habelə immunizasiyanın əhəmiyyətinə dair 14,005 nəfər üçün 2,592 fərdi və qrup məşğələləri keçirmişlər. Qrup məşğələlərində Bakı, Sumqayıt, Sabirabad, Lənkəran, Gəncə və Mingəçevir regionlarında yaşayan qadınlar, ahıllar, yeniyetmələr, əlil və yetim uşaqlar iştirak etmişlər. Seçilmiş icmaların davranışında hər hansı bir dəyişiklik olub-olmadığını qeydə almaq məqsədilə müntəzəm sorğular keçirilmişdir. Sorğular zamanı aşağıdakılar üzə çıxmışdır: şəxsi gigiyena və sanitariyaya dair seminarlardan sonra keçən qısa bir zaman ərzində 141 köçkün öz qonşularını səfərbər etmiş və onlar düşərgələrdəki küçələri təmizləmişlər. Daha 80 qadın qarşısı alına bilən xəstəliklərə qarşı öz uşaqlarına peyvənd vurulmasına razılıq vermişdir; müayinə zamanı üzərilərində onkoloji xəstəlik simptomları aşkar olunduqdan sonra 12 köçkün qadın həkimlə məsləhətləşmişdir.

Ən çox ümumi səhiyyə problemlərini müəyyən etmək məqsədilə Qızıl Aypara könüllüləri tərəfindən 321 nəfər arasında sorğu keçirilmişdir. Onlardan 254 nəfəri (respondentlərin 79 %) ümumi səhiyyə problemləri içərisində vərəmə prioritet vermişlər, 229 nəfər adam (71 %) onkoloji xəstəliklərin adını çəkmiş, və 151 nəfər isə (59 %) bildirmişdir ki, onların icmalarında ən geniş yayılan xəstəlik qızdırma xəstəliyidir. 20 nəfər malyariya və cinsi yolla keçən xəstəlikləri sadalamışdır. Ən çox ümumi səhiyyə problemləri barədə məlumat yaymaq və əhalinin profilaktik tədbirlər barəsində öyrənməsinə kömək etmək məqsədilə Qızıl Aypara 14.000 buklet, plakat və broşura hazırlamışdır.

Qızıl Aypara Beynəlxalq səviyyədə keçirilən kampaniyalarda fəal iştirak etmişdir. 24 mart Ümumdünya Vərəm Günündə Qızıl Aypara könüllüləri GTZ, Beynəlxalq Qırmızı Xaç Komitəsi ( BQXK ) və Açıq Tibbi Klub kimi digər aparıcı təşkilatların işçiləri ilə birlikdə Bakı şəhərində 1,500 insan “Gəlin Vərəmə yox deyək” başlıqlı broşuralar paylamışlar. 7 Aprel - Ümumdünya Səhiyyə Günündə Qızıl Aypara Açıq İnstitut Cəmiyyətinin debat mərkəzi ilə birgə çalışmışdır. Onlar vərəm, HIV/AIDS, narkomaniya, alkoqolizm və könüllü donorların qanının kəskin şəkildə aşağı düşməsinin təsirlərinə dair tələbələrlə dəyirmi masa arxasında müzakirələr keçirmişlər. Bu müzakirələrdə 125 gənc iştirak etmişdir. Azərbaycan Qızıl Aypara Cəmiyyəti həmçinin Azərbaycan Psixoloqlar Assosiasiyası (APA) və BUTA Humanitar Uşaq Fondu ilə birlikdə 10 oktyabr – Ümumdünya Psixiki Sağlamlıq Gününə həsr edilmiş kompaniya keçirmişdir. Bu kompaniya zamanı Azərbaycanın 6 regionunda yaşayan 500 nəfər əhali arasında psixiki sağlamlığa aid sorğular aparılmış, Bakı orta məktəblərinin birində 30 nəfər şagird və müəllim sağlamlıq üzrə təlim-məşğələ keçirilmiş və psixiki sağlamlıq sahəsində fəaliyyət göstərən müxtəlif təşkilatların 25 nəfər nümayəndəsi ilə görüş keçirilmişdir. Qızıl Aypara, APA və BUTA təşkilatları arasında psixiki sağlamlığına dair tədbirlərin birgə keçirilməsi haqqında 2004-2005-ci illər üçün Anlaşma Memorandumu imzalanmışdır.

## Təmənnasız könüllü qan donorluğu

«Təmənnasız Könüllü Qan Donorluğu» layihəsi Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən 2003-cü ildən B.Ə.Eyvazov adına Azərbaycan Respublikası Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutu və layihəni maliyyələşdirən Norveç Qızıl Xaç Cəmiyyəti və Beynəlxalq Federasiya ilə əməkdaşlıqda həyata keçirilir. 2004-cü ildə bu layihə çərçivəsində 40 təlimatlandırılmış könüllü tərəfindən Bakı və Gəncə regionlarında yaşayan 5,125 nəfərin arasında qan donorluğu vacibliyi haqqında seminarlar keçirilərək, onları dövlət qan banklarına qan verməyə çağırmışlar.

Habelə “Qan ver və yaşat” başlıqlı 24,400 ədəd plakat, broşur və buklet hazırlanmış və əhali arasında paylanılmışdır. Qızıl Aypara özünün ictimai təhsil kampaniyasının bir hissəsi kimi könüllü qan ianəsi barəsində film hazırlamışdır. Film ilk dəfə Ümumdünya Qan Günündə Milli Televiziya ilə nümayiş etdirilmiş və il ərzində 6 dəfə televiziyada getmişdir. Film həmçinin Qızıl Aypara seminarlarının bütün iştirakçılarına göstərilib.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən 14 iyun, Ümumdünya Qan Donorluğu Günü qeyd olunmuşdur. Qızıl Aypara könüllüləri və dövlət qan bankının işçiləri 34 nəfər müntəzəm qan donoru ilə görüşərək köməkliklərinə görə onlara təşəkkür etmiş və hədiyyələr vermişlər. Milli Cəmiyyətin 11 nəfər ən fəal könüllüsü də mükafatlandırılmışdır. Həmin gün Azərbaycan Qızıl Aypara Cəmiyyəti və B.Ə.Eyvazov adına Azərbaycan Respublikası Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutu arasında 2005-2007 illər üçün Anlaşma Memorandumu imzalanmışdır (əvvəlki Anlaşma Memorandumu 2003-2005 illər üçün 2003-cü ildə imzalanmışdır).

Qızıl Ayparanın maarifləndirmə sahəsində səyləri 144 nəfər qan donorunun toplanılması ilə nəticələnib.

## HİV/AİDS

HIV/AIDS həyəcan doğuran şəkildə yayılmaqdadır. Rəsmi statistika göstərir ki, Azərbaycanda 678 nəfər HIV/AIDS-ə yoluxmuşdur. HIV/AIDS-ə yayılmasının, habelə HIV/AIDS-ə yoluxmuş insanlara qarşı diskriminasiyanı azaltmaq məqsədilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti könüllülər şəbəkəsi vasitəsilə əhalini HIV/AIDS-in qarşısının alınması üzrə maarifləndirir. Əsas diqqət gənclərə yönəldilib. 2004-ci ildə Qızıl Aypara 224 yeni könüllüyə «HİV/AİDS – həmyaşıddan həmyaşıda» adlı təlim keçmişdir. Hazırda Qızıl Aypara ölkə üzrə icmalarla işləyən 303 həmyaşıd təlimatçıdan ibarət şəbəkəyə malikdir. İl ərzində onlar 10,000-ə yaxın adamı əhatə etmişlər. Hədəf qrupuna məktəb yaşlı uşaqlar, tələbələr və Ramanada yerləşən dəri – zöhrəvi xəstəxanasının xəstələri götürülmüşdür. Təlim məşğələnin sonunda iştirakçılara " özünü qoru" video klipi nümayiş etdirilmişdir. Klip Milli Cəmiyyətin sifarişi ilə çəkilmiş və klipdə HIV/AIDS-in qarşısının alınmasına dair başlıca məlumat verilir.

Layihə çərçivəsində həmçinin xəstəliyə dair məlumat verilən 10,800 buklet, cib təqvimi, plokat, qovluq, mayka, kepka, lent və çanta buraxılaraq təlim-məşğələlərin iştirakçılarına paylanılmışdır. İctimaiyyətin diqqətini HIV/AIDS probleminə cəlb etmək məqsədilə təşkil olunmuş kütləvi kampaniyalar zamanı "Gənclər HIV/AIDS-ə qarşı" şüarı altında iri şəhərlərin küçələrində yürüşlər keçirilmiş, informasiya materialları və qoruyucu vasitələr yoldan ötənlərə paylanılmışdır. Bu cür kampaniyalar il boyu müntəzəm şəkildə keçirilmişdir. 1 Dekabrda, «Ümumdünya AIDS-ə qarşı mübarizə Günün»də Qızıl Aypara Bakıda konsert təşkil etmişdir. İfaçıların arasında Milli Cəmiyyətin dəvət etdiyi yerli pop ulduzları çıxışları zamanı AIDS-ə qarşı öz səslərini qaldırıb, insanları daha təhlükəsiz davranmağa çağırmışlar. Bu Günə həsr olunan tədbirlər Qızıl Ayparanın 6 regional mərkəzində də keçirilib. Bu tədbirlər «Həmyaşıddan- həmyaşıda» adlı təlimlərdən, səhnəciklərdən, şagirdlərin və tələbələrin arasında HİV/AİDS mövzusuna aid olan və dairəvi masanın arxasında aparılmış müzakirələrindən və könüllülər tərəfindən keçirilmiş yürüşlər, broşurların paylanışından və rəsm müsabiqələrdən ibarət olmuşdur.

## HUMANİTAR DƏYƏRLƏR

2004-cü ildən Azərbaycan Qızıl Aypara Cəmiyyəti öz könüllüləri üçün humanitar dəyərlər üzrə bir sıra treyninqlər keçirmişdir. Bu treyninqlər könüllülərə zorakılıq və diskriminasiyanın bütün formalarına qarşı çıxmağa, habelə icmalarda müxtəlif mədəniyyətlərdən olan insanlara dözümlülük və hörmət göstərilməsi işini irəli aparmağa imkan vermişdir. İlkin mərhələdə Qızıl Aypara tərəfindən 6 regional mərkəzdən olan 10 könüllüyə təlim keçirilmişdir. Treyninqdən sonra könüllülər öz icmalarına qayıdaraq, əsasən məktəbli uşaqlar, yerli kənd sakinləri və digər könüllülərdən ibarət 337 nəfər üçün humanitar dəyərlər üzrə seminarlar keçirmişlər.

Qızıl Aypara həmçinin "diskriminasiya qəbuledilməzdir" şüarı ilə 500 məktəbli uşağın iştirak etdiyi rəsm yarışması təşkil etmişdir. Bu rəsm müsabiqəsi Qızıl Ayparanın 8 Mayda – «Ümumdünya Qızıl Xaç və Qızıl Aypara Günün»də təşkil etdiyi bir sıra tədbirlərdən biri idi. Ən yaxşı rəsmlər 1 İyun – «Beynəlxalq Uşaqların Mühafizəsi Günün»də Bakıda Qızıl Aypara Katibliyində düzənlənən sərgidə nümayiş etdirilmişdir. Üzərində "Dünyanın zəncirlərini açaq" sözləri yazılmış plakatı hazırlayarkən uşaqların çəkdiyi rəsmlərin birindən istifadə edilmişdir. Həmin plakatdan 2,000 nüsxə çap edilmiş və Milli Cəmiyyətin komitələri vasitəsilə paylanılmışdır. Digər rəsm müsabiqələri Bakı, Gəncə, Mingəçevir, Lənkəran və Sumqayıt regionlarında 300-ə yaxın məktəbli arasında narkomaniyanın ziyanına dair «Zülmət və İşıq. Seçim sənindir…» şüarı ilə keçirilmişdir və qaliblərin rəsmləri Milli Cəmiyyətin Katibliyində sərgidə nümayiş etdirilmişdir.

Qızıl Ayparanın dərc etdiyi yayım materialları arasında 1,800 ədəd «İllik Hesabat 2002», 1,500 ədəd «Mərhəmət 2001-2003» jurnalı, Aypara emblemi ilə 100 bayraq, 140 yapışdırma, 1,000 ədəd yayım materialı üçün qovluq və 4,000 ədəd qələm hazırlanmışdır.

Qızıl Aypara tərəfindən kommunikasiya strategiyası hazırlanılmış və **redcrescent.az** domeynini əldə edərək Milli Cəmiyyətin İnternet səhifəsi yaradılmışdır. İl ərzində Milli Cəmiyyət öz işinə dair məlumatları Federasiyanın və öz veb səhifələri, eyni zamanda yerli qəzet və televiziya kanalları vasitəsilə müntəzəm şəkildə yayımlayır. Milli Cəmiyyətin fəaliyyəti bir neçə yerli qəzetdə dərc olunmuş 60 məqalədə öz əksini tapmışdır və həmçinin Lider telekanalı vasitəsilə 20 dəqiqəlik «Qızıl Aypara işığında» adlı 35 verilişdə yayımlanmışdır.

## BEYNƏLXALQ HUMANİTAR HÜQUQ VƏ FUNDAMENTAL PRİNSİPLƏRİN YAYIMI

Beynəlxalq Qırmızı Xaç Komitəsinin dəstəyi ilə fəaliyyət göstərən Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Beynəlxalq Humanitar Hüquq (BHH) və Fundamental Prinsiplərin yayımı sektoru il ərzində 2 təlim nəticəsində 10 yayım üzrə könüllü hazırlamış və onlar tərəfindən müxtəlif məktəblərdə keçirilən 20 seminar zamanı 557 şagirdə BHH haqqında məlumat çatdırmışdır. Seminar-məşğələrin iştirakçılarına və əhali arasında Hərəkatın tanınması üçün Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 6 regional mərkəzinə yeni buraxılmış 500 stolüstü təqvim, 700 kitab üçün yaddaş və 1,500 Hərəkatın Fundamental Prinsiplərini əks etdirən plakat paylanılmışdır.

Qızıl Aypara emblemindən düzgün istifadə edilməməsi hallarını müzakirə etmək məqsədilə Qızıl Aypara könüllüləri 38 şəxsi tibbi müəssisəyə baş çəkmişlər. Bu Cenevrə Sazişlərinin 55-ci ildönümünə həsr edilmiş kompaniyanın tərkib hissəsi idi. Qeyd etmək lazımdır ki, kompaniya zamanı Bakının Stomatoloji Klinikalarının birində emblemin sui istifadəsi faktı qeyd olunmuş və onun işçilərinə Milli Cəmiyyətinin könüllüləri Qızıl Xaç/Qızıl Aypara embleminin düzgün istifadə qaydalarını izah etdikdən sonra klinikanın reklam lövhəsi üzərində olan Qızıl Xaç emblemi dişin eskizi ilə əvəz olunmuşdur.

## BEYNƏLXALQ ƏLAQƏLƏR

Azərbaycan Qızıl Aypara Cəmiyyəti beynəlxalq əlaqələri inkişaf etdirmək məqsədilə 2004-cü il ərzində çox saylı beynəlxalq görüşlərdə, seminarlarda və konfranslarda iştirak edərək Qızıl Ayparanı yüksək səviyyədə təmsil etmişlər.

Milli Cəmiyyətin İcraçı Katibi Elxan Rəhimov **2004-cü ilin fevral ayında** Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Genevrə şəhərində təşkil etdiyi «Təşkilatı İnkişaf» üzrə seminarda, həmçinin **mart ayında** Ankara şəhərində, Beynəlxalq Federasiyanın dəstəyi ilə «Maliyyə İdarəçiliyi» üzrə keçirilən seminarda iştirak etmişdir.

**2004-cü** il **aprelin 3-7-də** Çin Xalq Respublikasının Pekin şəhərində « 9-cu Beynəlxalq Təmənnasız Könüllü Qan Donorlarının cəlb etmə kollokviumu» keçirilmişdir. Burada Azərbaycan Qızıl Aypara Cəmiyyətinin «Sağlamlıq və Qayğı» şöbəsinin müdiri Mətanət Qaraxanova iştirak etmişdir.

**Aprel ayının 21-i** Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Sağlamlıq Departamentinin nümayəndəsi Laşa Qurqadze Sağlamlıq proqramı çərçivəsində Azərbaycan Qızıl Aypara Cəmiyyətinə səfər etmişdir.

Federasiya və Danimarka Qızıl Xaç tərəfindən təsis olunmuş Psixiki-Sosioloji Dəstək Mərkəzinin xətti ilə **may ayında** Svyatoslav Otçik və Markus Pinyas Pisaka Beynəlxalq Federasiyanın keçirdiyi psixo-sosial yardım proqramı çərçivəsində Azərbaycan Qızıl Aypara Cəmiyyətində qiymətləndirmə aparmaq məqsədilə Respublikamıza səfər etmişlər.

Milli Cəmiyyətin HIV/AIDS proqramının koordinatoru Şaban Şayev və «Sağlamlıq və Qayğı» şöbəsinin müdiri Mətanət Qaraxanova **sentyabr ayının 25-28** Polşanın Krakov şəhərində «HIV/AIDS» və «Vərəm» proqramları çərçivəsində ERNA təşkilatının təşkil etdiyii ənənəvi beynəlxalq seminarda iştirak etmişlər. **Sentyabr ayında** Tacikistan Qızıl Aypara Cəmiyyətindən Munojot Şumkurov Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə təcrübə mübadiləsi aparmaq üçün Azərbaycana səfər etmişdir.

Norveç Qızıl Xaç Cəmiyyətinin İnformasiya şöbəsinin nümayəndəsi Mikael Qodoe **oktyabr ayında** Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətləri ilə tanış olmaq üçün Azərbaycanda səfərdə olmuşdur. Həmçinin oktyabr ayının 4-15-nə kimi Beynəlxalq Federasiyanın Cenevrə şəhərində təşkil etdiyi İT Telekom treyninqində Qızıl Ayparanın telekom mütəxəssisi Əşrəf Həsənov iştirak etmişdir.

**7-12 noyabr 2004-cü** il tarixdə Milli Cəmiyyətin Hesabat üzrə təlimatçısı Leyla Bağırova və Beynəlxalq Federasiyanın Azərbaycandakı Nümayəndəliyinin İnformasiya və Hesabat üzrə məsul şəxsi Səbinə Məhbubi-İran Cenevrədə keçirilən İnformasiya üzrə seminarda iştirak etmişlər.

**2004-cü il 16-26 noyabr** tarixində «Sağlamlıq və Qayğı» şöbəsinin müdiri Mətanət Qaraxanova və Beynəlxalq Qırmızı Xaç Komitəsinin Milli Cəmiyyət və Beynəlxalq Federasiya ilə əlaqələr üzrə məsul şəxs olan Rəna Yusifova «Vərəm xəstələrinin müalicəsinin izlənməsi» proqramının təcrübəsini əldə etmək məqsədi ilə Rusiya Qızıl Xaç Cəmiyyətinin Pskov vilayətinə ezam olunmuşlar.

Həmin ay **(noyabr)** Qızıl Ayparanın İcraçı Katibi Elxan Rəhimov Beynəlxalq Federasiyanın Türkiyənin İstanbul şəhərində keçirdiyi «Fövqəladə Hallar idarəçiliyi» üzrə seminarda iştirak etmişdir.

**2004-cü il** Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Türkiyə Regional Nümayəndəliyindən Strateji Plan, Fövqəladə Hallar İdarəçiliyi və Hesabat üzrə məsul şəxslər Niyazi İlter, Kelemu Yilebek, Ketevan Khurtsiya Azərbaycana Qızıl Aypara ilə müxtəlif görüşlər keçirmək məqsədilə səfər etmişlər.

## TƏŞKİLATİ İNKİŞAF

İlin başlıca hadisəsi noyabrın 28-də Rəşid Behbudov adına Dövlət Mahnı teatrında keçirilən Azərbaycan Qızıl Aypara Cəmiyyətinin XXI Baş Məclisi olmuşdur. Baş Məclisinə seçilmiş nümayəndələrin mandatları təsdiq olunmuş, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin İdarəetmə Şurası, Rəyasət Heyəti və eyni zamanda Milli Cəmiyyətin yeni orqanı olan Arbitraj Komissiyasının üzvləri seçilmişdir.

Azərbaycan Respublikasının Prezidentinin 2004-cü il yanvarın 31-də «Azərbaycan Qızıl Aypara Cəmiyyətinə dövlət qayğısının artırılması haqqında» və onun ardınca Nazirlər Kabinetinin müvafiq sərəncamlarını Azərbaycan Qızıl Aypara Cəmiyyətinin əldə edilmiş ən böyük nailiyyəti kimi qeyd etmək olar.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti 2005-2007-ci illər üçün Strateji Planı qəbul etmişdir. Strateji Planın tərtib olunmasında Qızıl Ayparanın Ali Rəhbərliyi, Katibliyin əməkdaşları, bütün regional mərkəzləri, rayon komitələri və könüllüləri də cəlb olunmuşdu. Strateji Planda 2005-2007 illər üçün Milli Cəmiyyətin strateji vəzifələri göstərilmişdir.

Proqram planlaşdırılması və idarəetmə bacarıqlarını yaxşılaşdırmağa kömək etmək məqsədilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti özünün 117 nəfər işçi və könüllüsünə təlim keçmişdir. Əsas diqqət işçilərin strateji prioritetləri, rəhbərliketmə və idarəetmə mandatlarının fərqli olması daxil olmaqla Milli Cəmiyyətin nizamnaməsi, üzvlərlə və ilk təşkilatlarla işə dair anlayışlarının artırılmasına yönəldilmişdi.

Beynəlxalq maliyyələşdirmədən asılılığı azaltmaq məqsədilə Milli Cəmiyyət hər ikisi gəlir mənbələri olan ilk təşkilatların və üzvlərin sayının artırılmasına diqqət verir. 2004-ci ildə Qızıl Aypara yerli xəstəxanalar, poliklinikalar, orta məktəblər, bələdiyyələr və özəl şirkətlərdə özünün 48 yeni ilk təşkilatını yaratmaqla onların ümumi sayını 3,611-ə çatdırmışdır. Qızıl Aypara tərəfindən 28,821 yeni üzv qəbul olunmuşdur. Hazırda Qızıl Ayparanın ölkə üzrə üzvlərinin sayı 196,358 nəfərdir.

## YERLİ KOMİTƏLƏRİN İNKİŞAFI

2004-cü ildə yerli komitələrin inkişaf layihəsi çərçivəsində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin seçilmiş 6 yerli komitəsində - Sumqayıt, Mingəçevir, Zaqatala, Ucar, Şamaxı və İsmayıllı şəhər və rayon komitələrində icma iştiraklı inkişaf üsulunun istifadəsi davam etdirilmişdir. Təcili prioritet olaraq seçilmiş yerli komitələrin maddi-texniki bazası kompyuter, ofis avadanlığı alınmaqla və İnternet bağlantısı yaradılmaqla gücləndirilmişdir. İcma inkişafı, Hərəkatın prinsipləri və dəyərləri, eyni zamanda Qızıl Aypara işinin məğzini təşkil edən, lakin bu rayonlarda əvvəllər həyata keçirilməyən səhiyyə maarifi və ilk yardıma dair rayon komitələrinin işçi heyəti və könüllülərinə təlim verilmişdir.

Yerli komitələrin ərazisində olan 10 icma il ərzində nəzər diqqətdə idi. Şamaxı, İsmayıllı, Sumqayıt, Mingəçevir və Ucarda yerli əhali icma mərkəzləri üçün otaqlar təmir olunmuşdur. Hər bir icmada 5 nəfərdən 10 nəfərə kimi təşəbbüs qrupları seçilmişdir. Bu qruplar Qızıl Aypara komitəsinin işçiləri və könüllüləri ilə birgə icmalarda zəif sahələrin müəyyən edilməsi işində aparıcı qüvvəni təşkil edirdilər. Əsas müəyyən olunmuş problemlər sağlamlıqla bağlı problemlər olduğuna görə Qızıl Aypara tərəfindən təlimatlandırılmış könüllülər ilk yardım üzrə 4, 167 icma üzvünə təlim və daha 3,507 nəfərə isə profilaktik sağlamlıq üzrə seminarlar keçərək, onlara bu mövzulara aid olan çap materialları paylanılmışdır.

Yerli komitələrin öz davamlı fəaliyyətini təmin etmək və xarici yardım kəsildikdən sonra ehtiyacı olan insanlara xidmət göstərilməsini davam etdirə bilməsi üçün yerli komitələr tərəfindən 3 gəlir gətirmə layihəsi həyata keçirilmişdir: Ucarda inkubator, Sumqayıt və Mingəçevirdə internet klubları layihələri. Yerli icra hakimiyyətləri tərəfindən İnternet klubları üçün yer ayrılmışdır. İnternet klubları internet xidmətləri, habelə kompyuter və ingilis dili kursları təklif edir. Bu günə kimi Ucardakı inkubator layihəsi 27,000,000 Azərbaycan manat gəlir gətirmişdir. Sumqayıt və Mingəçevirdəki kompyuter kurslarından 815,000 Azərbaycan manat həcmində gəlir əldə olunmuşdur. 2.320 adam internet xidmətindən istifadə etmişdir.

Sumqayıt şəhər komitəsi 40 nəfər kimsəsiz uşaq üçün yay düşərgəsi təşkil etmişdir. Düşərgə proqramına könüllülər tərəfindən keçirilmiş ilk yardım, səhiyyə maarifi, Hərəkatın Fundamental Prinsipləri və humanitar dəyərlərə dair təlim məşğələləri daxil edilmişdi. İstisu kəndində Qızıl Ayparanın 27 könüllüsü müntəzəm olaraq 52 tənha qocaya baş çəkib, onlara ev işlərində köməklik etmişlər.

Digər könüllülər isə əlil və kimsəsiz uşaqlara baş çəkərək onlara ev tapşırıqlarını yerinə yetirməkdə, tamaşalar göstərmək və xalq nağılları əsasında kukla tamaşası təşkil etməkdə uşaqlara kömək etmişlər.

Qızıl Aypara könüllüləri icmadakı 503 uşağa tikmək, rəsm çəkmək, rəqs etmək və musiqi alətində ifa etmək və ya şahmat oynamağı öyrənmək məqsədilə müxtəlif sosial, idman və incəsənət dərnəklərinə cəlb ediblər. İdman dərnəklərinin şagirdləri arasında bir sıra futbol, volleybol, basketbol, tennis və şahmat yarışları keçirilmişdir. 5 yerli komitədə gənc icma sakinlərinə gələcəkdə özlərini işlə təmin edə bilmələri məqsədilə 143 nəfər üçün dərzi, bərbər, toxuculuq və kulinariya üzrə professional təlim kursları təşkil olunmuşdur. Qadınların rolunun gücləndirilməsinə xüsusi diqqət yetirilmişdir. Öz hüquqlarını daha yaxşı müdafiə edə bilmələri üçün qadınlar icma daxilində qadın komitələrində birləşiblər. İcma təşəbbüs qruplarının rəhbərləri ilə qadın komitələrinin müntəzəm görüşləri olmuşdur.

## İCMANIN İNKİŞAFI

Sabirabad rayonunun cənub düşərgələrində yaşayan köçkünlər və ətraf kəndlərin yerli əhalisi öz problemlərinin həlllində daha fəal iştirak edə bilmələri üçün İcma İnkişafı layihəsi həmin insanlara kömək etmək məqsədi daşımışdır. Buna nail olmaq üçün Azərbaycan Qızıl Aypara Cəmiyyəti:

- Cənub düşərgələrdə qadın komitələrinə (3 qadın komitəsi və qalan üçü isə Sabirabad rayonunun Əhmədabad, Bulaqlı və Qaratəpə kəndlərində ) kömək etmişdir.
- Müxtəlif sənətlərə yiyələnmək və iş tapmaq imkanlarını genişləndirməkdə insanlara kömək etmək məqsədilə peşə treyninqləri təşkil etmişdir.
- Uşaqlarla birgə işləmişdir. Burada məqsəd uşaqların asudə vaxtlarını mənalı keçirmələrinə kömək etmək və məktəbdən kənar vaxtlarda fəaliyyətlər təşkil etməklə uşaqları zərərli vərdişlərdən uzaqlaşdırmaq idi.

Öz icmalarındakı problemləri müzakirə etmək və ehtiyacların həlli üzrə planlar barədə razılığa gəlmək məqsədilə qadın komitələri müntəzəm olaraq görüşmüşlər. Qadın komitələrin üzvləri yerli əhalini cəlb etməklə küçələrdə təmizlik işləri aparmışlar. Onlar çadır düşərgələrində məskunlaşmış 80 hamilə qadına bələk paylamış, müntəzəm olaraq 120 nəfər tənha kimsəsiz qocaların evlərinə baş çəkmiş, evlərdə təmizlik işi görmüş və qocalara mənəvi dəstək göstərmişlər. İcmanın davamlılığını təmin etmək və zavallı insanlara kömək göstərmək məqsədilə Bulaqlı kəndində qadın komitəsi kiçik gəlir gətirmə layihəsini (satış üçün paltar tikmə işinə) başlamışdır və əldə edilmiş vəsait hesabına qismən də olsa aztəminatlı ailələrin ehtiyaclarına cavab verməyə nail olmuşdur.

Qızıl Ayparanın təşkil etdiyi peşə treyninqlərindən 87 nəfər faydalanmışdır. Onlardan 16 nəfəri özlərinə iş tapmağa müvəffəq olmuşlar. Belə ki, onlardan 8 nəfəri dərzi fəaliyyətinə başlamış, 7 nəfər qadın bərbəri və bir nəfər isə düşərgədə kişi bərbəri kimi işləməyə başlamışdır.

1,128 uşaq Qızıl Ayparanın 71 könüllüsü tərəfindən keçirilən dram, folklor, rəsm və idman dərslərində iştirak etmişdir. Futbol, boks, şahmat turnirləri kimi müxtəlif yarışlar təşkil olunmuşdur. Cənub düşərgələrindən və yerli icmalardan olan az təminatlı ailələrdən 100 uşaq dəniz kənarındakı yay düşəgəsində istirahət etmişdir. Qızıl Aypara uşaqlar üçün kukla tamaşalarının təşkil edilməsində könüllülərə köməklik etmişdir. Şəxsi gigiyena, malyariya və infeksion xəstəliklərin qarşısının alınmasına dair məlumat kukla tamaşaları vasitəsilə uşaqlara çatdırılmışdır.

Məktəbli uşaqlar, onların müəllimləri də daxil olmaqla 1,199 nəfər adam üçün ilk yardım, HIV/AIDS və profilaktik sağlamlığa dair Milli Cəmiyyətinin Sabirabad yerli komitə könüllüləri və icma könüllüləri tərəfindən qrup və fərdi məşğələlər keçirilmişdir. Treyninq məşğələlərinin nəticəsini yoxlamaq məqsədilə Milli Cəmiyyət 100 iştirakçı arasında sadə sorğu keçirmişdir. Sorğu müsbət nəticə vermişdir: belə ki, 84 nəfər bildirmişdir ki, onlar öz uşaqlarına peyvənd vurdurmuş, 68 qadın döş xərçənginə qarşı özlərini müayinədən keçirmiş, 25 nəfər kotraseptivlərdən istifadə etməyə başladıqlarını etiraf etmişdir, 16 nəfər özlərində cinsi yolla keçən xəstəliyin simptomlarını aşkar edən kimi həkimə müraciət etmişdir.

## GƏNCLƏR VƏ KÖNÜLLÜLƏR

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin könüllüləri ən çox köməyə ehtiyacı olan insanlar üçün bir sıra layihələr həyata keçirmişdir: Sumqayıt, Lənkəran, Gəncə və Bakının Şağan qəsəbəsindəki uşaq evlərində 550 kimsəsiz və əlil uşağa 52 könüllü müntəzəm olaraq baş çəkmiş, ev tapşırıqlarını yerinə yetirməkdə uşaqlara kömək etmiş, özlərinə sərbəst şəkildə necə qulluq etməyi öyrətmiş, uşaqlara şəkil çəkməyi və toxumağı öyrətmişlər.

3 Dekabr, «Beynəlxalq Əlillər Günün»də Qızıl Ayparanın 5 könüllüsü və Şağan uşaq evindən olan 20 kimsəsiz uşaq yüzlərlə digər uşağa qoşularaq ictimaiyyətin diqqətini əlil uşaqların taleyinə cəlb etmək məqsədilə Bakıda küçə yürüşünə çıxmışlar. Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə bu yürüşü Əlillik Məsələləri üzrə Lotos Mərkəzi, Dəcəllər Kukla Teatrı və bir neçə digər yerli qeyri-hökumət təşkilatları birgə hazırlamışdır. 5 Dekabr, «Beynəlxalq Könüllülər Günün»də könüllülər ətraf mühitin qorunması məqsədilə ADRA təşkilatı tərəfindən ianə edilmiş 3,000 ağac əkmişlər.

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 12 və Norveç Qızıl Xaç Cəmiyyətinin 8 könüllüsünün iştirakı ilə Şağan uşaq evində qalan 153 nəfər əqli cəhətdən zəif olan uşaqlar üçün yay istirahət düşərgəsi təşkil olunmuşdu. Düşərgənin gündəlik proqramına əsasən könüllülər uşaqları gəzintilərə aparmış, onlar üçün cürbəcür oyunlar və yarışmalar keçirmişdir. Bundan sonra Azərbaycan Qızıl Aypara və Norveç Qızıl Xaç Cəmiyyətlərinin könüllüləri birgə təcrübə mübadiləsi keçmək məqsədilə Norveçə səfər etmişlər. Düşərgənin təşkilində və Norveçə könüllülərin səfəri üçün maliyyə dəstəyi Norveç Qızıl Xaç Cəmiyyəti, Norveç Səfirliyi və «Statoil» neft şirkəti tərəfindən verilmişdir.

İl ərzində Milli Cəmiyyətinin mərkəzi gənc könüllər şuralarının 6, 7 regional gənc könüllər şuralarının isə 28 görüşləri keçirilmişdir. Qızıl Aypara tərəfindən Sumqayıt, Lənkəran, Mingəçevir və Gəncə regionlarında gənclər klubu yaradılmışdır. Klubların yaradılmasında məqsəd könüllülərə müxtəlif təlimlərin keçirilməsi, fikir və təcrübə mübadiləsi imkanlarını yaratmaq və asudə vaxtlarından səmərəli keçirtməkdir.

Milli Cəmiyyətin gənclər və könüllülər şöbəsinin əməkdaşları və könüllülər tərəfindən treyninq modul işlənilib hazırlanmışdır. Modulun hazırlanmasında məqsəd Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı və onun 3 tərkib hissəsinin tarixi, 7 Fundamental Prinsiplər və könüllülər işini ictimaiyyətə effektli çatdırmaqdır. Eyni zamanda modula, habelə İcma əsaslı Sağlamlıq, İlk Yardım, HIV/AIDS, Axtarış, Fövqəladə Hallara Hazırlıq, Humanitar Dəyərlər və s. proqram və layihələri üzrə Qızıl Aypara işinə dair qısa məlumat daxildir. İl ərzində treyninq modulun əsasında 935 yeni könüllü təlim almışdır.

Könüllülər haqqında daha aydın məlumatı əldə etmək üçün Qızıl Aypara tərəfindən mərkəzləşdirilmiş elektron məlumat bazası yaradılmışdır. Bu günə kimi 608 yeni könüllü qeydə alınmışdır. Hal-hazırda Azərbaycan Qızıl Aypara Cəmiyyətinin ölkə üzrə 15,484 könüllüsü vardır.

Layihə çərçivəsində gənclər və könüllülərin işinə dair 4,000 ədəd buklet, gənclər üçün 470 nüsxə təlimat kitabçası, 8,400 nüsxə Gənclərin aylıq bülleteni çap edilmişdir. Bundan başqa üzərində “Gənclər və Könüllülər” sözləri yazılmış 477 mayka və 80 gödəkçə və habelə üzərində “ Əgər Qızıl Xaç və Qızıl Aypara Hərəkatı barədə bilmək istəyirsənsə məndən soruş” sözləri yazılmış maykalar hazırlanmışdır.

Bu il Milli Cəmiyyətin Rəyasət Heyətinin 2004-cü il oktyabr qərarına uyğun olaraq Gənclər Komitəsi yaradılmışdır. Komitə sədr, iki sədr müavini və bir sıra fəaliyyətlər üzrə təyin olunmuş əməkdaşlardan ibarətdir. Gənclər Komitəsi artıq fəaliyyətə başlamış və Sağlamlıq, Fövqəladə Halların idarə olunması və Humanitar Dəyərlərin yayımı şöbələri ilə əməkdaşlıq çərçivəsində 155 nəfər məktəbli və tələbələrlə seminar və görüşlər keçirmişdir. Eyni zamanda Şağan uşaq evində qalan 153 nəfər əqli cəhətdən zəif olan uşaq üçün Yeni il şənliyi təşkil etmiş, fondreyzinq kampaniyasının nəticəsində müxtəlif təşkilatlardan yığılmış geyim və oyuncaqlar uşaqlara hədiyyə olaraq təqdim olunmuşdur.

## HUMANİTAR YARDIM

2004-cü ildə müxtəlif fəlakətlərdən zərərçəkmiş əhaliyə, az təminatlı ailələrə, tənha qocalara, ahıl-xəstə insanlara və digər zavallı insanlara 396,230,413 Azərbaycan Manat (USD 84,304) məbləğində aşağıdakı humanitar yardım göstərilmişdir:

| Humanitar yardımın mənbəyi | Humanitar yardımın növü | Əhalinin kateqoriyaları | Yardım göstərilmiş insanların sayı | Məbləğ (Az. Manatla) |
|---|---|---|---|---|
| İanə qutularından | 1. Ərzaq<br>2. Pulsuz tibbi müayinə kartı<br>3. Nimdaş paltar<br>4. Əl arabası<br>5. Dərman | Az təminatlı ailələr, tənha qocalar | 85<br>76<br>4<br>2<br>4 | 1,934,000<br>-<br>-<br>-<br>- |
| Norveç və Cənubi Koreya Qızıl Xaç Cəmiyyətlərindən, Qızıl Ayparanın üzvlük haqlardan və ianə qutularından | Fövqəladə yardım ehtiyyatları (ev-məişət və yataq ləvazimatı) | Fövqəladə hallar zamanı zərər çəkmiş insanlar | 5,887 | 211,548,413 |
| Gəlir gətirmə vəsaiti hesabına | Yataq ləvazimatı | Şağan uşaq evində yaşayan uşaqlar | 130 | 1,300,000 |
| Qızıl Ayparanın rayon komitələrinin üzvlük haqları hesabına | Ərzaq, dərman və məktəb ləvazimatı | Az təminatlı ailələr, tənha, ahıl-xəstə insanlar | 52,160 | 181,448,000 |

## AXTARIŞ XİDMƏTİ

2004-cü ildə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Axtarış Xidmətii dövlət strukturları ilə, əsasən Daxili İşlər, Millii Təhlükəsizlik Nazirliyi, Nazirlər Kabineti nəzdində Dövlət Arxivi İdarəsi, Ədliyyə Nazirliyi və VVAQ Mərkəzi Arxivi ilə sıx əməkdaşlıq etmişdir. Digər Milli Cəmiyyətlərlə əməkdaşlığın nəticəsində Qızıl Ayparanın Axtarış Xidməti tərəfindən bir sıra Milli Cəmiyyətlərə 255 sorğu göndərilmiş və onlardan 31 sorğu Qızıl Ayparanın Axtarış Xidmətinə daxil olmuşdur.

**2003-cü illə müqayisədə 2004-cü ildə aşağıdakı dəyişiklik baş verib:**

- İşlə bağlı miqrasiya nəticəsində sorğuların xeyli artması;
- II Dünya müharibəsi ilə bağlı axtarışların sayının azalması;
- Aliment ilə bağlı sorğuların sayının azalması.

**2004-cü ildə axtarışa dair statistik məlumatlar.**

- 275 sənəd tərtib edilib.
- 175 axtarış işi bağlanıb (onlardan 92 – musbət, 83 - mənfi).

2004-cü ildə 7 Regional Mərkəzin könüllülərinə axtarış üzrə seminar keçirilmiş, və bu təlimatçılar öz növbəsində 160 könüllü hazırlamışdır.

Qızıl Ayparanın Axtarış Xidməti barədə məlumatların yayılması üçün 525 nüsxədə plakat hazırlanmışdır. Plakatlar əhalinin sıx olan yerlərində, məktəblərdə, habelə qaçqın düşərgələrində yayımlanmışdır.

2004-cü ildə çəkilmiş «Axtarış Xidməti» adlı tədris filminin video kassetləri Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 7 Regional Mərkəzi arasında paylanılaraq könüllülər üçün bu mövzuya aid seminarlar zamanı istifadə edilir.

Milli Cəmiyyətin Axtarış Xidmətinin fəaliyyətləri haqqında məlumat, kütləvi informasiya vasitələri ilə yayımlanmışdır: Axtarış Xidmətinin işçiləri «Space» telekompaniyasının «Poçtalyon» verilişində çıxış edərək, bu verilişdə öz ailə üzvlərini, qohumlarını axtarmaq arzusunda olanlara pulsuz anketlər verilməsi və bu anketləri doldurub Qızıl Ayparanın AX-nin poçt vasitəsilə göndərə bilmələri barədə məlumatlar vermişdir. Mingəçevir regionunda Qızıl Xaç məktubu almış bir ailənin sevincini lentə alaraq Mingəçevir TV-də və həmçinin Sumqayıt regionunda «Bərpa edilmiş ailə əlaqələri barədə» videomaterialı Sumqayıt Televiziyası vasitəsilə göstərilmişdir.

## MOBİL TEXNİKİ DƏSTƏLƏR

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 5 mobil texniki dəstəsindən biri Naxçıvanda, qalan 4-dü isə Goranboy, Lənkəran, İsmayıllı və Qubada fəaliyyət göstərmişdir. 2002-2003-cü illərdə 3 mobil dəstə yaradılmışdırsa, qalan iki mobil dəstə 2004-cü ilin layihəsi əsasında yaradılmışdır. Donorların maliyyə dəstəyi hesabına 5 maşın, dəstə üzvlərinə xüsusi geyim formaları, tikinti alətləri, hər briqada üçün tikinti materialları alınmış və onlarla 2 günlük xüsusi təlim keçirilmişdir. Dəstələrin səmərəli işləməsinə kömək etmək məqsədilə Federasiya nümayəndəliyi onlar üçün standart maddi-texniki təchizat və hesabatvermə prosedurları üzrə təlim təşkil etmişdir. Bu təlimlərin keçirilməsi təmir və kommunal xidmətlərinin səmərəli aparılmasına, bu işə könüllülərin cəlb olunmasına, işlərin təhlükəsiz qurulmasına və tikinti materiallarının daha düzğün uçota alınıb səmərəli istifadə edilməsinə kömək etmişdir.

2004-cü ildə mobil texniki dəstələr ümumilikdə 1,247 evdə kommunal xidmət işləri aparmışlar: 279 ev Goranboyda, 297 ev Lənkəranda, 246 ev Qubada, 305 ev İsmayıllıda, və 120 ev Naxçıvanda. Benefisiarların 64 % (804 nəfər) tənha kimsəsiz qocalar olmuş, qalan 36 % isə ailə başçısını itirmiş çox uşaqlı ailələr olmuşdur. Kommunal xidmət işlərinə aşağıdakılar daxil olmuşdur: qapı, pəncərə və dam örtüyünün təmiri, sınmış pəncərə şüşələrinin dəyişdirilməsi, evdaxili elektrik işlərinin aparılması, divarların suvaqlanması, rənglənməsi və s. Qızıl Ayparanın yerli komitələri əsasən məktəbli uşaqlardan və qonşulardan ibarət 900 nəfərdən artıq könüllünü bu işə səfərbər etmişdir. Bu könüllülər həm cari təmir işlərinin aparılmasında və həm də həyətyanı sahədə təmizlik, səliqə-səhman yaradılmasında mobil texniki dəstələrə yardımçı olmuşlar.

## TELEKOMMUNİKASİYA

Telekommuniyasiya sektoru Azərbaycan Qızıl Aypara Cəmiyyətinin gündəlik fəaliyyətində və Fövqəladə Hallara Cavabvermə zamanı əhəmiyyətli olan, ictimai rabitədən asılı olmayan Cəmiyyətin özəl rabitə şəbəkəsini inkişaf etdirməkdədir.

Aşağıda qeyd olunan telekommunikasiya avadanlıqları quraşdırılmışdır:

1. 2 Milli Cəmiyyətinin RM-də (Sumqayıt və Gəncə), Qızıl Ayparanın mərkəzi anbarında və Naxçıvan Muxtar Respublikasının Komitəsində cəmi 4 ədəd ultraqısa dalğalı baza radio stansiyası quraşdırılmışdır;
2. 2 RM-də (Gəncə, Naxçıvan) cəmi 2 ədəd qısa dalğalı baza radio stansiyası quraşdırılmışdır;
3. 5 RM-in (Sumqayıt, Gəncə, Sabirabad, Lənkəran və Mingəçevir) və Naxçıvan Muxtar Respublikasının Komitəsinin maşınlarında cəmi 6 ədəd ultraqısa dalğalı mobil radio stansiyası quraşdırılmışdır;
4. 3 RM-in (Sabirabad, Naxçıvan, Mingəçevir) maşınlarında cəmi 3 ədəd qısa dalğalı mobil radio stansiyası quraşdırılmışdır.

Bütün RM-lər (Bakı RM-dən başqa), Baş İdarə və mərkəzi anbar birgə 25 ədəd ultraqısa dalğalı əl radio stansiyalar ilə təmin olunmuşdur.

İl ərzində Qızıl Ayparanın 82 nəfər işçisinə və 111 nəfər könüllüsünə r/st-lardan istifadə üzrə treyninq keçirilib.

## MALİYYƏ HESABATI

### Gəlirlər

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 2004-cü ildəki gəlirləri 5458,6 mln.manat təşkil edir.

Əvvəlki illərdə olduğu kimi, alınan gəlirlərin çox hissəsi, 4252,1 mln.manat və yaxud 77,9% xarici donorların maliyyə dəstəyindən və Dövlət büdcəsindən alınan vəsaitdən ibarətdir. Qalan 1206,5 mln.manat və yaxud 22,1% yerli gəlirlərdən və üzvülük haqlardan ibarətdir.

2004-cü ildə Qızıl Ayparanın gəlirlərinin tərkibi aşağıda göstərildiyi kimi olmuşdur:

1. 3486,5 mln.manat və yaxud umumi gəlirlərin 63,9%-i Beynəlxalq Federasiyanın;
2. 48,5 mln.manat və yaxud umumi gəlirlərin 0,9%-i Beynəlxalq QXK-nin;
3. 382,7 mln.manat və yaxud 7,0%-i xarici donorların
4. 334,7 mln.manat və yaxud 6,1%-i büdcə vəsaitindən;
5. 1099,3 mln.manat və yaxud 20,1%-i üzvlük haqlarından;
6. 26,6 mln.manat və yaxud 0,5%-i gəlir gətirmə sahələrindən;
7. 75,1 mln.manat və yaxud 1,4%-i ianə qutulardan, təşkilatlar və ayrı-ayrı imkanlı şəxslərin ianələrindən;
8. 5,5 mln.manat və yaxud 0,1%-i sair gəlirlərdən ibarətdir

## Xərclər :

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 2004-cü ildəki xərcləri 5427,2 mln.manat olmuşdur.

2004-cü ildə Qızıl Ayparanın xərclərin tərkibi aşağıda göstərildiyi kimi olmuşdur:

1. Beynəlxalq Federasiyanın maliyyə dəstəyi ilə yerinə yetirən məqsədli proqramlar üzrə 3486,5 mln.manat və yaxud umumi xərclərin 64,2%-i;
2. Beynəlxalq Qırmızı Xaç Komitəsinin maliyyə yardımı ilə yerinə yetirilən tədbirlərin maliyyəşdirilməsinə 48,5 mln.manat və yaxud umumi xərclərin 0,9%-i;
3. Xarici donorların maliyyə dəstəyi ilə yerinə yetirilən məqsədli proqramlara 382,4 mln.manat və yaxud umumi xərclərin 7,1%-i;
4. Beynəlxalq Federasiyaya ödənilən üzvlük haqqı (büdcə hesabına) 34,7 mln.manat və yaxud umumi xərclərin 0,6%-i;
5. Humanatir yardımlara 395,2 mln.manat və yaxud umumi xərclərin 7,3%-i;
6. Avadanlıqların alınmasına 300,0 mln.manat və yaxud umumi xərclərin 5,5%-i;
7. Təsərrüfat xərclərə və əmək haqqına 581,1 mln.manat və yaxud umumi xərclərin 10,7%-i;
8. Digər xərclərə 198,8 mln.manat və yaxud umumi xərclərin 3,7%-i.

## Gəlirlər (mln manat)




## Xərclər (mln manat)



## *Azərbaycan Qızıl Aypara Cəmiyyətinin haqqında qısa tarixçə*

1920-ci ilin mart ayının 10-da general-leytenant Əliağa Şıxlinskinin təşəbbüsü və o vaxtkı baş nazir Fətəli Xan Xoyskinin dəstəyi ilə Azərbaycan Qızıl Aypara Cəmiyyəti təsis edildi. Əliağa Şıxlinskinin həyat yoldaşı Nigar xanım Şıxlinskaya Qızıl Ayparanın yaradılmasında yaxından iştirak etmiş, Milli Cəmiyyətin «Şəfqət» xidmətinin yaradıcısı olmuşdur. 1923-cü ildən 1991-ci ilə qədər Azərbaycan Qızıl Aypara Cəmiyyəti SSRİ Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin İK-nin tərkibində fəaliyyət göstərmiş, 1991-ci ildə yenidən müstəqillik yoluna qədəm qoymuşdur.

1992-ci ilin mart ayında Azərbaycan Qızıl Aypara Cəmiyyətinin müraciəti ilə Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) Respublikada nümayəndiliyi açılmışdır.

1993-cü ilin may ayında Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının (Federasiya) Respublikada nümayəndiliyi açılmışdır.

1994-cü ildə Azərbaycan Respublikasının Milli Məclisinin qərarı ilə, Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının tərkib hissəsi kimi, onun fəaliyyəti sahəsində Azərbaycan Respublikasının ərazisində yeganə rəsmi təşkilat kimi tanınmışdır.

1995-ci ilin noyabr ayının 27-də Azərbaycan Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının tam, bərabərhüquqlu,daimi, 169-cu üzvlüyünə qəbul olunub.

2001-ci ildə Azərbaycan Qızıl Aypara Cəmiyyətin Prezidenti N. Aslanov Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının İdarəetmə Şurasında Fövqəladə Hallara Hazırlıq və Yardım Komissiyanın eksperti təyin olunub. 2003-cü ildə o yenidən Komissiyaya ekspert təyin olunub.

2003-cü ildə mart ayının 12-də Azərbaycan Qızıl Aypara Cəmiyyətinin XX qurultayı keçirilmişdir. Bu qurultayda Qızıl Ayparanın yeni Nizamnaməsi qəbul edilmişdir. Qurultayda Novruz Aslanov Cəmiyyətin Prezidenti, Qafar Əsgərzadə və Ramazan Sultanov Vitse-prezident seçilmişdir. Həmçinin, 5 sentyabr 2003-ci il tarixdə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin işinin yaxşılaşdırılmasına dair Azərbaycan Respublikası Nazirlər Kabinetinin 186 s nömrəli Sərəncamı işıq üzü görmüşdür.

2004-cü il yanvar ayının 31-də Azərbaycan Respublikası Prezidenti Zati-Aliləri İ.Əliyev «Azərbaycan Qızıl Aypara Cəmiyyətinə dövlət qayğısının artırılması haqqında» sərəncam verilmişdir. Prezidentin sərəncamının icrası məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti 2004-cü il iyulun 2-də 134 s və 135 s saylı müvafiq sərəncamlar imzalamışdır.

## Qızıl Xaç və Qızıl Aypara Hərəkatı tərəfindən AzQAC-nə olan dəstək:

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası, Beynəlxalq Qırmızı Xaç Komitəsi, Norveç, İsveç, Hollandiya, Cənubi Koreya Qızıl Xaç, Türkiyə, İran, Birləşmiş Ərəb Əmirlikləri və Səudiyyə Ərəbistanı Qızıl Aypara Milli Cəmiyytələri.

## AzQAC-nə dəstək olan beynəlxalq və yerli təşkilatlar:

Norveç Səfirliyi, World Vision, Exxon Azərbaycan Əməliyyat Şirkəti LLC (Exxon Azərbaycan), Amerika Sülh Korpusu, Ümumdünya İslam Gəncləri Assambleyası, UMCOR, ADRA, Radisson SAS Plaza Oteli, Coca-Cola və digər beynəlxalq və yerli təşkilatlar.